Abbasqulu bəy Şadlinski daşnaklara ağır zərbələr vurub

Daşnak haylar 1918-ci ildə hərtərəfli hazırlığı olan nizami ordu ilə Qərbi Azərbaycan türklərinin üzərinə hücuma keçdilər. Zəngəzur, Vedibasar, Göyçə torpaqlarında qanlı döyüşlər başlandı. Günahsız azərbaycanlılar qəddarcasına məhv edilir, xalqımız işgəncələrə məruz qalır, analoqu olmayan erməni vəhşilikləri keşişlərin təlimatı ilə həyata keçirilirdi.

Erməni vandallarının törətdikləri qanlı qırğınlar bütün mahalları bürümüşdü. Erməni faşizminə qarşı ilk dəfə özümüdafiə batalyonu yaradan, adı Azərbaycan xalqının qəhrəmanlıq tarixinə qızıl hərflərlə yazılan görkəmli sərkərdə Abbasqulu bəy Xanbaba oğlu Şadlinski (1886-1930) olmuşdur. 1918-ci ilin ortalarında daşnak həyasızlığı son həddə çatmışdı. Bu zaman daşnak zülmünə və qəddarlığına qarşı mübarizə aparmaq üçün qeyrətli və mübariz türk oğulları 32 yaşlı Abbasqulu bəyin başçılığı ilə silahlı özünümüdafiə batalyonu yaratdılar. 1920-ci ilin yayında Naxçıvan erməni-daşnak birləşmələri tərəfindən işğal edildi. Bu zaman Vedibasar mühasirəyə düşdü. Əhalini xilas etmək məqsədilə A.Şadlinski düşmən mühasirəsini yarıb camaatı Cənubi Azərbaycana keçirmişdir.

A.Şadlinski 1920-ci ilin payızında Naxçıvan bolşevik hökumətinin dəvəti ilə geri qayıdır və 400 nəfərlik məşhur "Qırmızı tabor"u yaradır. Sentyabrda "Qırmızı tabor" geniş əməliyyata başlayır və ayın sonuna kimi Şərur, Əznəburd, Noraşen nahiyyəsini daşnak quldurlardan tamamilə təmizləyir. İgid sərkərdənin cəsur döyüşçüləri Dərələyəz mahalını yandırıb külə döndərən Xndapet Qaponun daşnak qoşunlarına dalbadal sarsıdıcı zərbələr endirir. Qısa vaxtda Qərbi Azərbaycanın Dərələyəz və Zəngəzur bölgələrində kök salmış daşnak qoşunları silahlarını ataraq təslim olurlar.

1921-ci il fevralın sonu, martın əvvəlində daşnaklar yenidən baş qaldırıb, İrəvan şəhərini ələ keçirirlər. A.Şadlinski Vedibasarın kəndlərinə müraciət edərək onları bir komandanlıq altında birləşdirib daşnaklara qarşı mübarizəyə qalxır. İgid sərkərdənin bacarığı və döyüş qabiliyyəti xalqda ona inam hissi yaradır. Kiçik Vedi, Şıxlar, Böyük Vedi kəndləri arasında, Qəmərli ətrafında ermənilərə ağır zərbələr vurulur. Həmin vaxt ingilislər "Ermənistan"da ağalıq edirdilər. Onların ayrı-ayrı strateji məntəqələrdə - Dəvəlidə, Yayçıda, Şahtaxtıda hərbi dəstələri var idi. Daşnaklar bundan istifadə edərək Abbasqulu bəyin zərbəsindən qurtarmaq üçün ingilis komandanlığı ilə əlaqəyə girib onu öldürmək üçün plan hazırlayırlar. Dəvəlidə yerləşən ingilis düşərgəsinin komandanı Abbasqulu bəyi bu məqsədlə danışığa dəvət edir. İngilis komandanlığı əvvəlcədən qoyulmuş şərtlərə əsasən onu İrəvanda daşnaklara təslim edir. Daşnaklar ondan Vedi əhalisinin silahı yerə qoymasını tələb edirlər. Onların bu tələblərinə "vəd verən" Abbasqulu bəyi İrəvanda xalqımızın vətənpərvər oğullarından Əli Abbas, Hüseyn bəy və Cavanşir bəy zaminə götürürlər. Abbasqulu bəy isə Vediyə qayıdan kimi daşnakların tələblərini rədd edərək onlara qarşı mübarizəni daha da gücləndirir.

1919-cu ilin payızında Vedibasarda daşnaklarla Abbasqulu bəyin qoşunu arasında kəskin döyüşlər getdiyi bir vaxtda İrandan gəlib, Şahtaxtıdan keçib Qaraxaça çatmış türk xalqlarının qatı düşməni olan Andranik Abbasqulu bəyə silahı yerə qoymasını təklif edir. O isə döyüşləri davam etdirməklə Andranikin təklifini rədd edir. Andranik Qaraxaç, Qədirli, Biraəli kəndlərinin əhalisini qılıncdan keçirir, qalanlarını isə damlara doldurub yandırır. Lakin Abbasqulu bəyin dəstəsi ilə döyüşlərdə böyük itkilərə məruz qalan tayqulaq Andranik Dərələyəzə doğru çəkilməyə məcbur olur. Abbasqulu bəyin dəstəsi isə öz növbəsində Şərur, Vedibasar üçün təhlükəli olan Zəncirli erməni kəndini "müharibənin qanunlarına" uyğun yerlə-yeksan edərək xarabalığa çevirir, ermənilər isə bu çətin məqamda "astbats" deyə-deyə cəhənnəmə vasil olurlar.

Sovet hakimiyyəti illərində Abbasqulu bəy Şadlinskinin qarşısında belə bir vəzifə qoyuldu: "Əznəburd-Qarabağlılar ətəyi ilə hərəkət edib Bağırsaqdərə-Sədərək arasında mövqe tutmaq". Bu əməliyyat noyabr ayında həyata keçirildi və nəticədə Şahtaxtı və Xok kəndlərində daşnak erməni quldur dəstələrindən 1200 nəfərə yaxın əsgər və zabit əsir götürüldü, haylara ağır zərbələr endirildi. Beləliklə, Şərur qəzası daşnaklardan tamamilə azad olundu.

Ümumiyyətlə, Ermənistanda sovet hakimiyyətinin ilk illərində daşnaklara qarşı amansız mübarizədə və onların tamamilə darmadağın edilməsində Abbasqulu bəy Şadlinskinin böyük xidmətləri olmuşdur.

A.Şadlinskinin Ermənistanda, Naxçıvanda, Şərur mahalında daşnaklara qarşı apardığı qəhrəmanlıq mübarizəsi o dövrün rəhbər işçilərindən Myasnikovun, Qostanyanın və başqalarının məruzə və çıxışlarında da qeyd edilmişdir. Göstərdiyi böyük xidmətlərə görə Abbasqulu bəyin rəhbərlik etdiyi "Qırmızı tabor"un bir neçə üzvü "Qırmızı bayraq" ordeninə layiq görülmüşdür.

Erməni-daşnak quldur dəstəsinin başçıları Abbasqulu bəyin qorxusundan şirin yuxu tapa bilmirdilər. Günlərin bir günündə erməni kilsəsində daşnaklarla keşişlərin məxfi söhbətləri olur. Söhbət əsnasında keşiş hirslənərək deyir: "Ehtiyatlı olun ki, Ermənistan türklərindən Abbasqulu kimi bizlərə qənim kəsilən yeniləri törəməsin. Belə olarsa vay, bizim halımıza...".

Ermənilər Abbasqulu bəydən çox ehtiyat edirdilər. Onlar bu cəsur azərbaycanlı oğlunun əlinin zərbəsinə bələd idilər. Daşnaklar Abbasqulu bəyi aradan götürmək üçün dəridən-qabıqdan çıxırdılar. Nəhayət, 1930-cu ildə belə bir fürsət ələ düşdü.

Abbasqulu bəy yaxın dostu və silahdaşı, erməni daşnaklarına qənim kəsilən Kərbəlayı İsmayıllı tutulmaq təhlükəsindən xilas etmək üçün 8 illik ayrılıqdan sonra yenidən Vediyə qayıdır. Kolxoz quruculuğunun qızğın çağlarında onu "qulaq" adlandırıb sovet quruculuğuna zidd adam kimi təqiblərə başlayırlar. Vəziyyəti layiqincə araşdırmağı bacaran Kərbəlayı başa düşür ki, onu həbs gözləyir. Elə buna görə də başına silahlı dəstə toplayaraq Kotanlı kəndində məskunlaşaraq, 20 kəndi özünə tabe edir. Kolxoz quruculuğu üçün böyük təhlükə hesab edilən bu qiyamın qarşısını almaq üçün ermənilər yenidən məkrli plana əl atırlar. Bütün bunlardan sonra onlar ermənilərin qatı düşməni olan Abbasqulu bəy Şadlinskini və Kərbəlayı İsmayılı məhv etmək üçün yaxşı fürsət ələ düşdüyünü hiss edirlər. Belə ki, Kərbəlayı üçün "tilov" hazır idi. Qalırdı Şadlinski. Onlar düşünüb plan hazırlayaraq belə qərara gəldilər ki, Kərbəlayının yaxın dostu Abbasqulu bəyi onun yanına göndərsinlər. Əgər Abbasqulu bəy Kərbəlayını razı sala bilsə, onda desinlər ki, bütün bu işləri Kərbəlayı sənin göstərişinlə yerinə yetirirmiş, ona görə də onu sən qaçırmısan, sən də gətirməlisən. Yox, onu razı sala bilməsə onda deyərik ki, onu sən qoymursan ki, kəndləri azad edib təslim olsun. Elə bu planla da Abbasqulu bəy Kərbəlayının yanına göndərilir. Danışıqlardan qayıdan Abbasqulu bəy yolda öldürülür. Beləliklə, düşmən öz çirkin niyyətini həyata keçirir.

Qədir ASLAN,
"Respublika".